# FÖVQƏLADƏ HALLARDA MÜLKİ MÜDAFİƏ İDARƏÇİLİYİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ



**Sabir Ələkbərov,**
*Sumqayıt Dövlət Universitetinin*
*Mülki müdafiə, tibbi və fiziki hazırlıq*
*kafedrasının baş müəllimi*
*e-mail: alekberov.sabir62@gmail.com*



**İlhamə Qarayeva,**
*Sumqayıt Dövlət Universitetinin Təbiət*
*elmləri fakültəsinin akademik məsləhətçisi*
*e-mail: povil96@gmal.com*

*https://doi.org/10.30546/2706-7858.2026.2.3026*

**UOT:** 355.58

**Xülasə.** *Müasir dövrdə təbii və texnogen xarakterli fövqəladə hadisələrin artması cəmiyyətin təhlükəsizliyinin təmin olunmasını daha da aktuallaşdırır. Zəlzələlər, sel və daşqınlar, yanğınlar, sənaye qəzaları və digər fövqəladə hallar insanların həyat və sağlamlığına, iqtisadi inkişafa və ətraf mühitə ciddi təhlükə yaradır. Bu baxımdan mülki müdafiə sisteminin effektiv idarə olunması mühüm əhəmiyyət kəsb edir. Mülki müdafiə idarəçiliyi fövqəladə halların qarşısının alınması, nəticələrinin aradan qaldırılması istiqamətində kompleks tədbirlər sistemini əhatə edir. Fövqəladə hadisələr zamanı effektiv mülki müdafiə idarəçiliyi cəmiyyətin təhlükəsizliyinin təmin olunmasında və insan itkilərinin minimuma endirilməsində mühüm rol oynayır. Bu anlayış yalnız hadisəyə reaksiya vermək deyil, həm də qabaqlayıcı tədbirlərin planlaşdırılması, risklərin qiymətləndirilməsi və resursların düzgün idarə olunmasını əhatə edir.*

*Çağdaş dövrdə təbii və texnogen fəlakətlərin tezliyi və miqyası əhəmiyyətli dərəcədə artmış, bu isə effektiv mülki müdafiə idarəçiliyini zəruri etmişdir. Məqalədə fövqəladə hallar zamanı informasiyanın vaxtında və dəqiq toplanılmasının, emalının və yayılmasının rolu vurğulanır.*

***Açar sözlər:*** *mülki müdafiə, informasiya mübadiləsi, fövqəladə hallar, idarəetmə sistemi, beynəlxalq təcrübə.*
***Keywords:*** *civil defense, information exchange, emergencies, management system, international experience.*
***Ключевые слова:*** *гражданская оборона, обмен информацией, чрезвычайные ситуации, система управления, международный опыт.*

Müasir dövrdə bəşəriyyətin intensiv təsərrüfat fəaliyyəti, sənayeləşmə və urbanizasiya prosesləri ətraf mühitin təbii tarazlığının pozulmasına səbəb olmuşdur. Bunun nəticəsində təbii və texnogen xarakterli fövqəladə halların başvermə ehtimalı və miqyası artmışdır. Statistik məlumatlara görə, son onilliklər ərzində dünyada təbii fəlakətlərin sayı və onların vurduğu iqtisadi zərər əhəmiyyətli dərəcədə artmışdır. Bu isə dövlətlərin mülki müdafiə sisteminin daha müasir və effektiv şəkildə təşkil

edilməsini zəruri edir [6].

Fövqəladə halların qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması prosesində informasiya mübadiləsinin operativ və dəqiq təşkili xüsusi əhəmiyyət kəsb edir. İnformasiyanın vaxtında toplanılması, emalı və aidiyyəti qurumlara ötürülməsi fövqəladə halların idarə olunmasında mühüm rol oynayır. Bu baxımdan mülki müdafiə sistemində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi mühüm əhəmiyyətə malikdir.

Mülki müdafiə idarəçiliyi dövlətin və cəmiyyətin fövqəladə hallara hazırlığını təmin edən, resursların planlaşdırılması və səfərbər olunmasını həyata keçirən idarəetmə fəaliyyətidir. Bu idarəetmə prosesi risklərin qiymətləndirilməsi, qabaqlayıcı tədbirlərin hazırlanması, operativ qərarların qəbulu və müxtəlif qurumlar arasında koordinasiyanın təmin edilməsini özündə birləşdirir. Effektiv mülki müdafiə idarəçiliyi yalnız fövqəladə hadisə baş verdikdən sonra deyil, həm də hadisədən əvvəl və sonra həyata keçirilən tədbirləri əhatə edir. Bu da onun kompleks və çoxşaxəli xarakter daşıdığını göstərir.

Fövqəladə hallarda mülki müdafiə idarəçiliyinin rolu çoxşaxəlidir və aşağıdakı əsas istiqamətləri əhatə edir:

• ***Əhalinin mühafizəsi və təhlükəsizliyinin təmin edilməsi.*** Burada əsas vəzifələrdən biri insanların həyatının qorunmasıdır. Vaxtında xəbərdarlıq sistemlərinin qurulması, evakuasiya planlarının hazırlanması, sığınacaqların təşkili bu istiqamətdə mühüm rol oynayır.

• ***Operativ və düzgün qərar qəbuletmə.*** Fövqəladə vəziyyətlərdə vaxt amili həlledicidir. Düzgün təşkil olunmuş idarəetmə sistemi qərarların çevik və əsaslandırılmış şəkildə qəbulunu təmin edir.

• ***Qurumlararası koordinasiya.*** Fövqəladə halların aradan qaldırılması müxtəlif qurumların birgə fəaliyyətini tələb edir. Mülki müdafiə idarəçiliyi bu qurumlar arasında əlaqəni və əməkdaşlığı təmin edir.

• ***Xilasetmə və bərpa işlərinin təşkili.*** Hadisədən dərhal sonra xilasetmə əməliyyatlarının operativ təşkili, zərərçəkmişlərə tibbi və sosial yardımın göstərilməsi, infrastrukturun bərpası mühüm əhəmiyyət daşıyır.

Dünyanın bir çox ölkələri mülki müdafiə sisteminin təkmilləşdirilməsi məqsədi ilə beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirirlər. Bu sahədə fəaliyyət göstərən əsas qurumlardan biri Beynəlxalq Mülki Müdafiə Təşkilatıdır. Bu təşkilat fövqəladə halların idarə olunması sahəsində üzv dövlətlər arasında əməkdaşlığın inkişafına, müasir texnologiyaların tətbiqinə və kadr hazırlığına dəstək verir [5]. Azərbaycan da bu təşkilatın üzvü kimi beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi istiqamətində mühüm addımlar atmışdır. Bu əməkdaşlıq mülki müdafiə sisteminin təkmilləşdirilməsinə və əhalinin təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir.

Mülki müdafiə sistemi dövlətin təhlükəsizlik siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu sistem fövqəladə halların qarşısının alınması, əhalinin və ərazilərin qorunması, habelə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması məqsədi ilə təşkil olunur. Mülki müdafiə sistemi mülki müdafiə vəzifələrinin yerinə yetirilməsi həvalə edilmiş icra hakimiyyəti orqanlarının, xüsusi xidmətlərin, qüvvə və vasitələrin, rabitə və xəbərdarlıq sistemlərinin vahid kompleksindən ibarətdir [2]. Mülki müdafiənin əsas vəzifələrinə aşağıdakılar daxildir:

*– əhalinin fövqəladə hallardan mühafizəsinin təmin edilməsi;*

*– təbii və texnogen xarakterli qəzaların qarşısının alınması;*

*– qəza-xilasetmə və bərpa işlərinin həyata keçirilməsi;*

*– fövqəladə hallar zamanı əhalinin operativ məlumatlandırılması;*

*– mülki müdafiə üzrə mütəxəssislərin hazırlanması və təlimlərin təşkili.*

Bundan əlavə, müharibə şəraitində mülki müdafiə sistemi *dinc əhalinin qorunması və iqtisadi obyektlərin fəaliyyətinin təmin olunması* kimi mühüm funksiyaları da yerinə yetirir [3].

Azərbaycanda mülki müdafiə sisteminin müasir tələblərə uyğun şəkildə formalaşdırılması və inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bu sahədə həyata keçirilən islahatlar ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi dövründə əhalinin təhlükəsizliyinin təmin olunması,

fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublikamızın seysmik zonada yerləşməsi və müxtəlif təbii risklərin mövcudluğu mülki müdafiə sisteminin daha da gücləndirilməsini zəruri edir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 16 dekabr 2005-ci ildə Fövqəladə Hallar Nazirliyi yaradılmışdır. Nazirliyin yaradılması fövqəladə halların idarə olunması sisteminin təkmilləşdirilməsinə və bu sahədə fəaliyyətin vahid mərkəzdən koordinasiya olunmasına imkan yaratmışdır [4].

Mülki müdafiənin idarəetmə sistemi idarəetmə orqanlarının, idarəetmə məntəqələrinin, rabitə və xəbərdarlıq vasitələrinin vahid kompleksindən ibarətdir və idarəetmə prosesinin maddi əsasını təşkil edir [1]. Fövqəladə halların idarə olunmasında informasiya mübadiləsinin düzgün təşkili mühüm əhəmiyyət kəsb edir. İnformasiyanın operativ toplanılması, təhlili və aidiyyəti qurumlara çatdırılması xilasetmə işlərinin səmərəliliyini artırır. Hazırda müasir informasiya texnologiyalarının tətbiqi fövqəladə halların idarə olunmasında mühüm rol oynayır. Elektron idarəetmə sistemləri və avtomatlaşdırılmış informasiya şəbəkələri vasitəsilə hadisələr haqqında məlumatların operativ şəkildə toplanılması və təhlili mümkün olur. Azərbaycanda Fövqəladə Hallar Nazirliyində tətbiq olunan elektron idarəetmə sistemi vasitəsilə bütün struktur bölmələri arasında operativ informasiya mübadiləsi həyata keçirilir. Bu sistem hadisələr haqqında məlumatların real vaxt rejimində əldə edilməsinə və operativ qərarların qəbul olunmasına imkan yaradır.

Dünya təcrübəsi göstərir ki, mülki müdafiə sistemində informasiya mübadiləsinin səmərəli təşkili üçün müasir texnologiyaların tətbiqi böyük əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrdə fövqəladə halların monitorinqi və idarə olunması üçün peyk rabitəsi, coğrafi informasiya sistemləri və avtomatlaşdırılmış idarəetmə platformalarından geniş istifadə olunur [7]. Bu texnologiyalar vasitəsilə fövqəladə halların erkən aşkar edilməsi, risklərin qiymətləndirilməsi və operativ qərarların qəbul edilməsi mümkün olur. Eyni zamanda beynəlxalq təşkilatlar və dövlətlər arasında informasiya mübadiləsi fövqəladə halların daha effektiv idarə olunmasına şərait yaradır. Bir sıra ölkələrdə fövqəladə halların idarə olunması üçün vahid komanda və idarəetmə sistemi tətbiq edilir. Bu sistem vasitəsilə müxtəlif qurumlar – xilasedici xidmətlər, tibb müəssisələri, polis və digər strukturlar arasında informasiya mübadiləsi koordinasiyalı şəkildə həyata keçirilir. Nəticədə hadisəyə operativ reaksiya verilir və xilasetmə işlərinin səmərəliliyi artır.

Beynəlxalq təcrübədə əhalinin vaxtında məlumatlandırılması da mühüm istiqamətlərdən biri hesab olunur. Bunun üçün kütləvi informasiya vasitələri, mobil rabitə şəbəkələri, xüsusi xəbərdarlıq sistemləri və sosial platformalar geniş şəkildə istifadə edilir. Bu vasitələr əhaliyə təhlükə barədə operativ məlumat verilməsinə və onların düzgün davranış qaydaları haqqında məlumatlandırılmasına kömək edir.

Fövqəladə halların idarə olunmasında əhalinin vaxtında xəbərdar edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə fövqəladə hallarda əhalinin diqqətini cəlb etmək üçün sirenlər vasitəsilə “Hamının diqqətinə!” siqnalı verilir. Bu siqnal əhalinin radio və televiziya vasitəsilə verilən məlumatlara diqqət yetirməsini təmin edir və onların təhlükəsizlik tədbirləri haqqında məlumatlandırılmasına kömək edir [4].

Mülki müdafiə sistemi fövqəladə hallar zamanı əhalinin təhlükəsizliyinin təmin edilməsi, itkilərin minimuma endirilməsi və operativ tədbirlərin görülməsi üçün mühüm rol oynayır. Bu sistemin səmərəli fəaliyyət göstərməsində informasiya mübadiləsinin düzgün və vaxtında təşkili xüsusi əhəmiyyət daşıyır. Müasir dövrdə bir çox ölkələr mülki müdafiə sahəsində informasiya mübadiləsinin təşkili üçün beynəlxalq təcrübədən və müasir texnologiyalardan geniş istifadə edirlər. Beynəlxalq təcrübə göstərir ki, fövqəladə hallar zamanı operativ qərarların qəbul edilməsi üçün vahid informasiya sistemi və koordinasiya olunmuş idarəetmə mexanizmi vacibdir. İnkişaf etmiş ölkələrdə mülki müdafiə qurumları arasında məlumat mübadiləsi xüsusi informasiya

platformaları, rəqəmsal rabitə sistemləri və avtomatlaşdırılmış idarəetmə mərkəzləri vasitəsilə həyata keçirilir. Bu sistemlər hadisə haqqında məlumatların operativ toplanılmasına, emal olunmasına və aidiyyəti qurumlara ötürülməsinə imkan yaradır.

Mülki müdafiə sistemində beynəlxalq təcrübənin tətbiqi, həm də müxtəlif ölkələr arasında əməkdaşlığın gücləndirilməsini nəzərdə tutur. Bu məqsədlə birgə təlimlər, seminarlar və beynəlxalq layihələr həyata keçirilir. Belə tədbirlər fövqəladə halların idarə olunması sahəsində bilik və təcrübə mübadiləsinə, yeni texnologiyaların öyrənilməsinə və tətbiqinə şərait yaradır. Azərbaycanda mülki müdafiə sisteminin inkişafı və Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm əhəmiyyət kəsb edir. Effektiv mülki müdafiə idarəçiliyi aşağıdakı mühüm nəticələrin əldə olunmasına imkan yaradır:

– *insan itkilərinin minimuma endirilməsi;*
– *maddi və iqtisadi zərərlərin azaldılması;*
– *cəmiyyətin dayanıqlılığının artırılması;*
– *fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi;*
– *panik vəziyyətlərin qarşısının alınması və s.*

Bununla yanaşı, müasir dövrdə informasiya texnologiyalarının tətbiqi mülki müdafiə idarəçiliyinin effektivliyini daha da artırır. Erkən xəbərdarlıq sistemləri, rəqəmsal monitorinq və məlumat mübadiləsi fövqəladə hallara daha çevik reaksiya verilməsinə şərait yaradır. Bu baxımdan inteqrasiya olunmuş rəqəmsal mülki müdafiə idarəetmə modeli təklif olunur:

– *vahid informasiya platforması;*
– *real vaxt məlumat mübadiləsi;*
– *süni intellektəsaslı qərar dəstək sistemi;*
– *mobil xəbərdarlıq texnologiyaları.*

Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələrdə mülki müdafiə sistemləri qabaqlayıcı tədbirlərə və risklərin idarə olunmasına daha çox üstünlük verir. Bu yanaşma fövqəladə halların təsirinin minimuma endirilməsində mühüm rol oynayır. Eyni zamanda beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi də nəticə etibarilə effektiv idarəetmədə mühüm əhəmiyyət kəsb edir.

– *insan itkilərini minimuma endirir;*
– *iqtisadi zərərləri azaldır;*
– *cəmiyyətin dayanıqlığını artırır;*
– *fövqəladə hallara hazırlığı yüksəldir.*

Mülki müdafiə sistemində informasiya mübadiləsinin təşkili sahəsində beynəlxalq təcrübənin tətbiqi fövqəladə hallara hazırlıq səviyyəsinin artırılmasına, idarəetmənin təkmilləşdirilməsinə və əhalinin təhlükəsizliyinin daha etibarlı təmin olunmasına xidmət edir. Belə ki, müasir texnologiyaların və beynəlxalq əməkdaşlığın genişləndirilməsi bu sahənin daha da inkişaf etməsinə mühüm töhfə verir.

**Nəticə.** Əhalinin təhlükəsizliyinin daha etibarlı təmini üçün vahid rəqəmsal idarəetmə sistemi və erkən xəbərdarlıq texnologiyalarının genişləndirilməsi, beynəlxalq təcrübənin tətbiqi və əhalinin maarifləndirilməsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, fövqəladə hallarda mülki müdafiə idarəçiliyinin rolu və əhəmiyyəti danılmazdır. Bu sistemin düzgün və effektiv təşkili insan həyatının qorunmasına, iqtisadi itkilərin azaldılmasına və cəmiyyətin təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Müasir çağırışlar fonunda mülki müdafiə idarəçiliyinin daha da təkmilləşdirilməsi, innovativ yanaşmaların tətbiqi və əhalinin maarifləndirilməsi xüsusi aktuallıq kəsb edir.

## İstifadə olunmuş ədəbiyyat

1. Ocaqov H.O. Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi. Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2010.
2. Təhsildə fəlakət riskinin azaldılması (müəllimlər üçün metodik vəsait). UNİSEF, Bakı, 2013.
3. "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1997.
4. Fövqəladə halların idarə olunması üzrə metodik vəsait. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Bakı, 2015.
5. International Civil Defence Organization. Civil protection and disaster management. Geneva, 2018.
6. United Nations Office for Disaster Risk Reduction. Disaster risk reduction framework, New York, 2015.

7. Coppola D.P. Introduction to International Disaster Management. Elsevier, 2017.

**S.Alakbarov, I.Garayeva**

## Role and importance of civil defense management in emergencies

**Abstract**

The increase in natural and man-made emergencies in modern times makes ensuring the security of society even more urgent. Earthquakes, floods, fires, industrial accidents and other emergencies pose a serious threat to people's lives and health, economic development and the environment. In this regard, effective management of the civil defense system is of great importance. Civil defense management includes a complex system of measures aimed at preventing, emergency situations and eliminating their consequences. Effective civil defense management during emergencies plays an important role in ensuring the security of society and minimizing human losses. This concept includes not only responding to the event, but also planning preventive measures, risk assessment and proper management of resources. In modern times, the frequency and scale of natural and man-made disasters have significantly increased, which necessitates effective civil defense management. In the article emphasizes the role of timely and accurate collection, processing and dissemination of information during emergencies.

**С.Алекперов, И.Гараева**

## Роль и значение управления гражданской обороной в чрезвычайных ситуациях

**Аннотация**

Увеличение числа стихийных и техногенных чрезвычайных ситуаций в современную эпоху делает обеспечение безопасности общества еще более актуальным. Землетрясения, наводнения, пожары, промышленные аварии и другие чрезвычайные ситуации представляют серьезную угрозу для жизни и здоровья людей, экономического развития и окружающей среды. В этой связи эффективное управление системой гражданской обороны имеет огромное значение. Управление гражданской обороной включает в себя комплексную систему мер, направленных на предотвращение, чрезвычайных ситуаций и устранение их паледствий. Эффективное управление граж-данской обороной во время чрезвычайных ситуаций играет важную роль в обеспечении безопасности общества и минимизации человеческих жертв. Эта концепция включает в себя не только реагирование на событие, но и планирование превентивных мер, оценку рисков и надлежащее управление ресурсами. В современную эпоху значительно возросла частота и масштабы стихийных и техногенных катастроф, что обуславливает необходимость эффективного управления гражданской обороной. В статье подчеркивается роль своевременного и точного сбора, обработки и распространения информации во время чрезвычайных ситуаций.